# İrəvan Qazılığının fəaliyyətinin bərpası zamanın tələbidir

**Ötən əsrin müxtəlif vaxtlarında ermənilər tərəfindən öz dədə-baba torpaqlarından zorla deportasiya olunan azərbaycanlılar son olaraq 1988-ci ildə indiki Ermənistan ərazisində etnik təmizləmə siyasətinin qurbanı olublar. Xalqımıza aid nə varsa onu məhv etmək istəyən ermənilər bütün vəhşilikləri törədiblər. Deportasiyalar nəticəsində Qərbi Azərbaycanda qazılıqların fəaliyyəti də məcburi dayandırılıb.**

Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan bugün öz qanuni hüquqlarını tələb edərək sülh şəraitində Qərbi Azərbaycana qayıdışı hədəf kimi müəyyənləşdirib. Bu istiqamətdə ilk addımlardan biri 28 dekabr 1989-cu ildə yaradılan "Azərbaycan Qaçqınlar Cəmiyyəti"nin 3 avqust 2022-ci ildə adının dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilməsidir.

Mayın 22-də isə Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının İrəvan Qazısının fəaliyyəti bərpa olundu və Əsasnaməsi təsdiqləndi. Bəxtiyar Nəcəfovun İrəvan qazısı təyin olunması səsə qoyularaq qəbul edildi.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa qəzetimizə açıqlamasında bildirib ki, tarixən fəaliyyət göstərən İrəvan Qazılığının həmin dövrlərdə insanların dini-mənəvi dəyərlərinin qorunmasında böyük rolu olub: "Torpaqlarımız uzun illər işğal altında olduğundan bu fəaliyyəti bərpa etmək mümkün deyildi. İndi İrəvan qazısının da təyinatı olduqca ciddi və önəmli məsələdir. İrəvan Qazılığının fəaliyyətinin bərpası zamanın tələbidir. Qayıdış prosesi başa çatandan sonra İrəvan Qazılığının fəaliyyəti canlanacaq, orada yaşayan insanlarımızın mənəvi, dini tələbatının ödənməsinə fayda verəcək".



Deputat, həmçinin qeyd edib ki, İrəvan Qazılığının bərpası ilə bağlı qanunlara müvafiq dəyişikliklər təklif ediləcək: "Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsində bu məsələyə baxılacaq. Sənədlər beynəlxalq konvensiyalara, qanunvericiliyin normalarına uyğun olmalıdır. İrəvan qazısının beynəlxalq platformada Azərbaycanın səsini duyuran şəxs olmasına çalışmalıyıq. Eyni zamanda Qərbi Azərbaycana qayıdışla bağlı elə nüfuzlu qurum yaratmalıyıq ki, oradan səslənən fikirlər beynəlxalq ictimaiyyətə çatsın. Qərbi Azərbaycan İcmasının təmsilçisinin İslam Əməkdaşlıq Təşkilatında hansısa müşahidəçi statusda yer alması da bu istiqamətdə atılan addımların effektivliyinə təsir edər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 25 may (№108).- S.4.